# LƏNKƏRANDA XEYRİYYƏ AKSİYASI






**İDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı (FAO) təşkilatı, Heydər Əliyev Fondunun “Regional inkişaf” İctimai Birliyi və “Cavan” Gənclər Hərəkatı ilə birlikdə Lənkəranda aksiya keçirib. Aksiya çərçivəsində şəhid ailələri, Qarabağ müharibəsi veteranları və aztəminatlı ailələr üçün meyvə bağları salınır, təbiətin yaşıl örtüyünün artırılmasına davamlı şəkildə qayğı göstərilir.**

Növbəti aksiya rayonun Moğonojba kəndində təşkil olunub. Kəndin ərazisindən keçən Ələt-Astara magistral avtomobil yolunun kənarında Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə aprel döyüşləri zamanı həlak olmuş iki şəhidin ailəsi və Qarabağ veteranı üçün ayrılmış 2 hektar torpaq sahəsində 3 sitrus meyvə bağı salınıb. Bağlarda ümumilikdə 1100 ədəd məhsuldar feyxoa ağacları əkilib. Yeni əkilən ağaclar dayaqlarla bərkidilib, onlara aqrotexniki qulluq göstərilir.

Bu münasibətlə keçirilən mərasimdə Lənkəran Şəhər İcra Hakimiyyətinin rəsmiləri, İDEA İctimai Birliyinin, Heydər Əliyev Fondunun “Regional inkişaf” İctimai Birliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı (FAO) təşkilatının nümayəndələri, “Cavan” Gənclər Hərəkatının könüllüləri iştirak ediblər.

Tədbiri Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov açaraq qeyd edib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, gənc, tanınmış ictimai xadim Leyla Əliyevanın rəhbərliyilə İDEA İctimai Birliyi maarifləndirmə yolu ilə ətraf mühitin və ekologiyanın qorunması işlərinə layiqli töhfələr verir. Yeniyetmə və gəncləri bu işə cəlb etməklə qısa vaxtda çox böyük uğurlar əldə edilib.

Təşkilatın təşəbbüsü ilə ölkədə ağacəkmə aksiyalarının keçirildiyini, təmizlik işlərinin aparıldığını, tullantıların yığıldığını, nadir bitki və heyvan növlərinin qorunmasına davamlı qayğı göstərildiyini bildirən icra başçısı bu tədbirlərdə Lənkəran gənclərinin, rayon ictimaiyyətinin nümayəndələrinin yaxından iştirak etdiyini, rayonun ərazisində minlərlə ağac və gül kollarının əkildiyini, tonlarla kağız tullantısının və plastik qabların qalıqlarının yığıldığını söyləyib.

İcra başçısı keçirilən aksiyaların yeniyetmə və gənclərin ekoloji tərbiyəsində, onlarda Vətənə məhəbbət, təbiətə qayğıkeş münasibət hisslərinin formalaşdırılmasında mühüm rol oynadığını diqqətə çatıraraq İDEA İctimai Birliyinin xeyirxah təşəbbüslərinin bundan sonra da rayon gəncləri tərəfindən dəstəklənəcəyini qeyd edib.

Sonra Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov meyvə bağlarının mülkiyyət hüququna dair şəhadətnamələrini aprel döyüşlərində şəhid olmuş gənclərin valideynləri İbrahim Ağayevə, Hurinisə Kərimovaya və Qarabağ müharibəsi veteranı Sayyad Ağayevə təqdim edib. İcra başçısı, qonaqlar və şəhid ailələrinin üzvləri birgə ağac əkiblər.

Mərasimin sonunda musiqi sədaları altında gənclərin flaşmob aksiyası keçirilib.

**Əlisəfa HƏSƏNOV,**
**“Respublika”.**